İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# ƏDALƏT VƏ İNCƏSƏNƏT

(hekayələr)

TOFİQ ƏL-HƏKİM

Ərəb dilindən tərcümə:

Fərid Camalov

parlaq
İMZALAR

| | |
|---|---|
| Baş redaktor: | Toğrul MUSAYEV |
| Redaktor: | Toğrul MUSAYEV |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| Cildin dizayneri: | ART&COPY |

عدالة وفن
توفيق الحكيم

**Tofiq əl-Həkim**
**ƏDALƏT VƏ İNCƏSƏNƏT** *(hekayələr)*

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2025, 176 səh.

**© Tofiq əl-Həkim / 1953**
**© Parlaq İmzalar MMC / 2025**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 151

ISBN 9952580846
9789952580846

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
2025

**Tofiq əl-Həkim** 1898-ci il oktyabrın 9-da Misirin İsgəndəriyyə şəhərində aristokrat ailəsində anadan olub. İbtidai və orta təhsilini tamamladıqdan sonra 1925-ci ildə hüquqşünaslıq üzrə təhsilini davam etdirmək üçün Parisə yollanıb. Lakin Parisdə hüquqdan daha çox sənət və teatra maraq göstərərək Avropa mədəniyyətini dərindən öyrənib. 1928-ci ildə Misirə qayıdaraq bir müddət prokuror köməkçisi kimi fəaliyyət göstərib; bu dövrün müşahidələri əsasında sonralar məşhur "Kənd prokurorunun qeydləri" əsərini yazıb. 1933-cü ildə qələmə aldığı "Mağara adamları" pyesi ilə ərəb dramaturgiyasında yeni bir mərhələnin – "intellektual teatr" cərəyanının əsasını qoyub.
1940-50-ci illərdə "Şərqdən gələn quş", "Ruhun qayıdışı" kimi irihəcmli romanları ilə ərəb nəsrində köklü dəyişikliklər edib.
Tofiq əl-Həkim 1987-ci il iyulun 26-da Qahirədə dünyasını dəyişib.

**Fərid Camalov** 8 iyul 1977-ci ildə Gəncə şəhərində anadan olub. 2003-cü ildə Azərbaycan Beynəlxalq Universitetinin Regionşünaslıq (ərəb ölkələri) fakültəsinə daxil olub. 2007-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib. 2009-cu ildə təhsilini magistr pilləsi üzrə davam etdirmək üçün Qahirə Universiteti Ədəbiyyat fakültəsi Yeni və Müasir Tarix kafedrasına qəbul olub.
2015-2020-ci illərdə Misir Ərəb Respublikası Səfirliyi Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzində tərcüməçi vəzifəsində işləyib.
Xeyli sayda məqalə, esse, pyes, hekayə, sənədli və bədii filmləri Azərbaycan və ərəb dillərinə tərcümə edib. Onlardan "Misir nağılları", "Uşaq üçün hekayələr", "Qu quşu", "Fasilə", "Sonuncu çiçək dükanı", "Yersiz ölüm", "Kiçik bəhanələr" və s. hekayələri, "Azadlıq" romanını, "Füzuli sənətkarlığı" kitabını qeyd etmək olar.

# Mündəricat

Hoqqabaz 9
Sərvət sahibi 23
Məhkəmə-tibbi eksperti 51
Vəzir Cəfər 79
Uğursuz rejissorluq 113
Həcvçi şairə 123
Qandallanmış kurortçular 129
Bədbəxt gecə 135
Özümdən qorxdum 143
Şirniyyat müfəttişi 151
Ədalət axtaranlar 155
Saxsı qab gəlib çıxdı! 163

# HOQQABAZ

Məhkəmə iclasında bəsit "ədalət" mövqeyi kimi heç bir şey mənim üçün "incəsənət" sözünün əsl mənasını izah edə bilməmişdi. Həmin gün prokurorluq nümayəndəsi qismində bir rayon məhkəməsində iştirak edirdim. Səs-küy içində hakimin monoton, darıxdırıcı səsini yarıyuxulu vəziyyətdə dinləyirdim. O, bir sıra insanlara tətbiq olunan cərimələri oxuyurdu: lisenziyası olmadan su tuluğu yerinə bidonlarda su satana, icazəsi olmadan qatar stansiyasında yük daşıyana, sallaqxanada kəsilməyən əti satana, dörd kəsici dişi tam əmələ gəlməmiş dişi camış, yaxud inək kəsənə, dünyasını dəyişmiş adamın cəsədini qanunun icazə verdiyi vaxtdan əvvəl çıxarana, yaxud daşıyana, ayaqyolunu müəyyən olunmamış vaxtda təmizləyənə, barama qurdunun çıxdığını xəbər verməyənə, pambıq kolunu vaxtında kökündən çıxarmayana, şirinbiyan kökü, keçibuynuzu, arpa satmaq üçün lisenziya almadan dükan açana və s. və i. a.

Mürgüləməmək üçün özümə məşğuliyyət axtarmağa başladım və qarşımdakı masanın üzərində cızmaqaralara baxmaqdan başqa bir əyləncə tapmadım. Doğ-

rudan da, çox qəribə idi, bu cızma-qaralar nə rəssam, nə sevən gənclərin, nə də dəcəl uşaqların əl işlərinə oxşayırdı.

Bunlar uzun illərdir həmin masa arxasında əyləşən prokurorluğun çox hörmətli əməkdaşlarının əl işləri idi... Şübhəsiz ki, onlar da mənim kimi səs-küydən bezib darıxanda, başlarını qatmaq üçün cib bıçağı ilə taxta masanın üzərində "Sülsi", "Farisi", "Riqi" və "Nəsxi" xətt növləri ilə adlarını, məhkəmədə iştirak etdikləri tarixi və s. təfərrüatları oymuşdular. Bu cızma-qaralar arasında sonradan ali məhkəməyə qədər gedib-çıxan parlaq və məşhur simaların adları da var idi. Onlar öz adlarını bu kiçik şəhərdə, köhnə masanın üzərində cib bıçağı ilə cızıb əbədiləşdirmişdilər. Belə masalar toplanıb məhkəmə işçiləri muzeyinə verilsəydi, yaman olardı! Bunlar birinin darıxmağından, digərinin diqqətsizliyindən, başqa birinin isə adını əbədiyyətə həkk etmək istəyindən xəbər verən gözəl nişanələr idi!..

Amma mən onların gördüyü bu işi etmədim, bilmirəm niyə.

Ancaq bircə onu bilirəm ki, bu işi görməməyimin səbəbi nə onları qınamaq, nə də onların bu əməlini pisləmək idi. Təbii ki, bu, adımı əbədiləşdirmək istəyimin olmamasından, yaxud heç vaxt üstümdə gəzdirmədiyim cib bıçağımın olmamasından irəli gəlmirdi. Bəlkə də, əsas səbəb onların hamısından daha tənbəl olmağım idi. Bəzən məni yuxu aparır, bədənim keyiyirdi. Burada baş verənləri, insanların üzlərini, və-

killərin hərəkətlərini, məhkəmədə çəkişən tərəflərin davranışlarını, zalda oturanların görünüşünü: bəzisinin başında təsəyi, bəzisinin yun papağını, bəzisinin şalını, bəzisinin ayağında sarı dəri ayaqqabısını müşahidə etdikcə sanki gözümün qarşısında kaseti, müəllifi və rejissoru olmayan cizgi filmi canlanırdı. Bəzən bu cizgi filmi əyləncəli, bəzən isə məna dolu olurdu. Bu mənzərə yalnız mənim gözümün qarşısında canlanmırdı, görürdüm ki, zaldakılar, taxta skamyalarda sıra ilə əyləşənlər də mənimlə eyni hissi keçirirlər. Zalda baş verənlərdən əylənir, bundan zövq alırdılar... Burada oturan insanları nəzərdə tuturam, məhkəmədə baş verənlərin onlar üçün nə istisi, nə də soyuğu vardı. Onlar məhkəmə zallarına sadəcə əylənmək üçün gəlib-gedirlər. Digərlərinə isə – təqsirləndirilənlərə, məhkəmədə mübahisə edənlərə, şahidlərə, dostlara bu şirin əyləncə imkanı verilmir, axı onların başı yalnız öz müşküllərinə qarışır və onların dərdi-səri heç kimi maraqlandırmır... Hər kəsin qayğı və təlaşı məhkəmənin gəldiyi nəticədən asılı idi. Bu yazıqlar bizim kimi boş-bikar oturanların aldığı həzz və ləzzəti ala bilmirlər!

Hakimə gəlincə, məhkəmə iclasında başını qaşımağa vaxtı olmayan yeganə insan odur. O, sağ əli ilə qərarları, hökmlərin bəndlərini yazır, sol əli ilə cinayət işlərini vərəqləyir. Təqsirləndirilənlərə yalnız təqsirləndirilən, şahidlərə yalnız şahid, vəkillərə isə yalnız vəkil kimi baxır. Məhkəmə iclasında bunlardan başqa heç kimi görmür. Deməli, əminliklə deyə bilərik ki, onun masasında nə bir cızıq, nə bir oyuq, nə də bir yazı var!

Məhkəmə bir iclasını bitirən kimi, digərinə başladı. Cinayət işlərinin hamısı bir-birinə oxşayırdı, tez-tez rast gəldiyimiz kiçik oğurluq, yüngül bədən xəsarəti, ucuz qiymətli məhsulların mənimsənilməsi və s. Bir oğurluq işinə baxılırdı. Həmin iş diqqətimi cəlb edib yuxumu qaçırdı və marağımı oyatdı. Toyuq oğurluğu işi üzrə məhkəmə iclası idi. Düzdür, adi bir məsələ idi, ancaq oğurluğun tərzi, hakim və təqsirləndirilən arasında gedən sual-cavab baş verənləri dinləyib izləməyə dəyərdi...

Təqsirləndirilən etiraf etdi ki, bu işdə möhkəm və uzun kəndirdən istifadə edib. Kəndirin bir ucuna yem bağlayıb və bir yerə daldalanaraq marığa yatıb. Yemi görən toyuq onu yeyən kimi kəndiri özünə çəkib asanlıqla toyuğu tuturmuş.

Hakim təqsirləndirilənə baxıb məzəmmətlə dedi:

– Demək istəyirsən toyuğu balıq tutan kimi, tilovla tutmusan?!

– Möhtərəm hakim, məgər balıq tutmaq cinayətdi?!

– Balıq tutmaq cinayət deyil, ancaq toyuq tutmaq cinayətdi.

– Çox qəribədi?!

– Çünki balıq dənizdə üzür, sahibi də yoxdu, amma toyuğun sahibi var.

– Toyuğun da sahibi yox idi... İtmişdi, küçədə azmışdı... Möhtərəm hakim, indi küçədə azmış bir it görüb onu özümə götürsəm, oğru sayılacam?!

– İt başqa, toyuq başqa.

Hakim sözünü deyib bir azdan verəcəyi hökmün müddəalarını yazmağa başladı, ancaq təqsirləndirilən inadından əl çəkmədi:

– Möhtərəm hakim, it, pişik, nə fərqi var, hər ikisi də heyvandı!

– Küçə itləri haqqında eşitmişik, lakin küçə toyuqları deyilən bir şey yoxdu!

– Demək istəyirsiz ki, itlər azır, amma toyuqlar yox?! Yəni toyuqlar itlərdən daha ağıllıdı?!

– A kişi, məhkəmənin belə şeylərə vaxtı yoxdu! Sən toyuq oğurluğunda təqsirli bilinirsən...

– Möhtərəm hakim, mən o toyuğu oğurlamamışam, əksinə, o mənim yemimi yeyib. Onun sahibi olsaydı, küçəyə buraxardı ki, getsin camaatın buğdasını yesin?!

– Toyuğun yiyəsi tapılıb.

– Mən hardan bilim! Sahibi gərək yiyəsi olan itlər kimi boynuna xalta vurub üstünə adını yazaydı... Yoxsa səhv deyirəm?!

– Toyuğun boynuna xalta?! Bəlkə, zəncir?!

– Belə etsəydi, daha yaxşı olardı...

– Sən oğurluqda təqsirləndirilirsən.

– Oğurluq o vaxt olur ki, kiminsə evindən və ya cibindən bir şey götürəsən... Ancaq kimsə küçəyə bir şey atsa, sanki onu dənizə atıb... Bircə atdığının mənim kimi bir kasıbın qismətinə düşməsi qalır!

– Bəsdi, a kişi, boş-boş danışma!

– İtlər ağıllı heyvandı, möhtərəm hakim... Mən toyuğun yanına getmişəm, yoxsa toyuq mənim yanıma

gəlib? Əgər oğurlanmış toyuğun yanına getsəydim, bəli, mən oğru olardım, ancaq oğurlanmış özü mənim yanıma gəlib! Mən necə oğru ola bilərəm?!

Hakim təqsirləndirilənin dediklərinə əhəmiyyət vermədən hökmün maddələrini yazıb qurtardı, iclasa tələsik xitam verib dedi:

– Özünü müdafiə etməyi bitirdin? Üç aylıq həbs və icbari iş cəzası verilsin...

Sonra uca səslə qapıçıya dedi: “Növbəti”.

Polis çavuşu digər təqsirləndiriləni məhkəmə zalına gətirdi və hakim həmin şəxsin işi ilə məşğul olmağa başladı. Mənim fikrim hələ də toyuq oğurlayanın yanında idi, düşünürdüm ki, boş-boş danışmasına baxmayaraq, onda oğurluq maddəsinin ona tətbiq olunmasını sual altına aparan bir məharət və ustalıq bacarığı vardı. Ancaq təqsirləndirilənin gətirdiyi bəhanələrdən də maraqlısı onun toyuğu dalınca düşmədən, səs-küy salmadan tutması idi.

Məhkəmə iclası bundan sonra da eyni tərzdə davam etdi, yuxu yenidən məni çənginə aldı və bu vəziyyət tanımadığım bir şəxsin səsini eşidənədək davam etdi. O, avaralıqda təqsirləndirilirdi. Hakim ona dedi:

– Sən avaralıqda ittiham olunursan, baxmayaraq ki, polisdən xəbərdarlıq almışdın.

Kişi etiraz edərək dedi:

– Mənəm avara?! Ayıbdı!

Hakim qarşısındakı işi vərəqləyərək dedi:

– Polisin protokolunda göstərilib ki, sənin qanuni gəlir əldə etməyin üçün heç bir işin yoxdu.

Kişi fəxrlə dedi:

– Möhtərəm hakim, mən sehrbazam.

– Sehrbazlıq qanunla icazə verilmiş peşə hesab edilir?

– Əlbəttə ki, möhtərəm hakim... Elə bilirsiz hamı sehrbaz ola bilər?! Mən bütün ömrümü buna sərf etmişəm... Bu işi on yaşımda öyrənmişəm... İstəyirsiz sizə də göstərim?

– Mənə?!

– Möhtərəm hakim, işimi görsəniz, bunun adi iş olmadığına hökm verəcəksiz... Görəcəksiz ki, bu, məharət və ustalıq tələb edir!

Hakimin nə deyəcəyini gözləmədən sağ qolunu çirmələyib hakimin oturduğu kürsüyə yaxınlaşıb "Bismillahir rəhmanir rəhim" dedi, sonra əlini hakimin çənəsinə uzadıb oradan bir sarı cücə çıxardı... Cücə gözümüzün qabağında tullanıb kürsünün üstündə ora-bura qaçmağa başladı. Məhkəmədə oturanların gülüş və təəccüb dolu səsləri o dəqiqə zalı bürüdü. Hərənin ağzından bir avaz çıxırdı. Hakim çaşıb qalmışdı, bilmirdi gülsün, təəccüblənsin, ya qəzəblənsin?! Sehrbaz camaatın üzündəki sevinc, heyranlıq hissindən anladı ki, onlar məhkəmə zalında olduqlarını unudublar, əyləncə sadəlövh kənd camaatının ağlını başından çıxarıb. Onlar belə səhnələrlə çox nadir hallarda rastlaşırlar. Harada olduqlarını unudaraq pulsuz tamaşanın davam etməsini arzu edirdilər. Hakim bu tamaşaya son verməli idi, nəhayət, səbri daşdı və qələmi ilə kürsünü taqqıldadıb hamıdan sakitliyə riayət etməsini tələb etdi, əks

halda, zaldan çıxaracağı ilə hədələdi. Zala sükut çökdü, camaat yenidən qəm-qüssəyə qərq oldu. Hakim qeyzli baxışlarını onun əmrlərinə məhəl qoymadan hələ də kürsünün üstündə şəstlə gəzən cücəyə tuşladı. Bu vaxt sehrbaz işin nə yerdə olduğunu anlayıb əlini cücəyə uzatdı və cücə yoxa çıxdı. Və beləliklə, məhkəmə iclası həmişəki ciddiyyəti və axarı ilə davam etdi, sanki heç nə olmamışdı.

Söz deməyimə ehtiyac yox idi, iclasda baş verəni hamıdan qabaq görən, əməkdaşım hakimin çənəsindən cücənin çıxarılmasına hamıdan qabaq gülən – təbii ki, gizlincə – mən idim. Gülməli səhnənin belə tez bitdiyinə hamıdan tez təəssüflənən də mən idim... Eyni zamanda bir bədbəxtin, sehrbazın taleyinə görə hamıdan çox narahat olan da mən idim. Ona bəraət qazandıracağını zənn etdiyi bu hərəkət, əksinə, onu bəlaya sala, hakimi qəzəbləndirə bilərdi. Sehrbazın bəxti onda gətirdi ki, hakim yaxşı insan idi və qəzəbinin ədalətə üstün gəlməsinə imkan vermədi. Hakimin hirsi tez soyudu, rəngi özünə gəldi və o, həqiqəti ortaya çıxarmaq üçün həvəslə iclası davam etdirdi. Üzünü sehrbaza tutub dedi:

– Sənin məharətinə şübhəmiz qalmadı, ancaq ustalığın, sadəcə, əl cəldliyindən ibarətdi...

Görəsən, hər əl cəldliyi şərəfli bir iş hesab olunur? Cibgir də əl cəldliyinə görə seçilir...

Sehrbaz kəskin şəkildə etiraz edərək dedi:

– Məgər mən cibgirəm?! Allah eləməsin! Cibgir cibə girməkdə mahirdi! Mən isə, möhtərəm hakim, öm-

rümdə bir dəfə də olsun bu məharətdən oğurluq üçün istifadə etməmişəm... Bu bacarığımla mən insanları sadəcə əyləndirirəm. Mən sənətkaram!

– Sənətkar?!

Hakim bu sözü deyib mənə baxdı, sanki o məndən bu sehrbazın dediklərinin doğru olub-olmadığını soruşurdu. Axı hakim mənim incəsənətə bağlı olduğumu, növündən asılı olmayaraq, hobbimin incəsənət olduğunu bilirdi. Asudə vaxtlarımızı əməkdaşlarla bir yerdə keçirəndə şeir, musiqi, ədəbiyyat, fotoqrafiya haqqında danışdığımı çox eşitmişdi. Bəlkə də, köhnə dostlardan prokurorluq və məhkəmə orqanlarında işə başlamazdan əvvəl pyes, şeir, mahnı yazdığımdan xəbər tutmuşdu. Sehrbazın dediklərini inkar etməyimi mənim ağzımdan eşitmək istədiyi baxışlarından məlum idi. Onun fikrincə, bu sehrbaz sənətkar ola bilməz. Öz-özümə fikirləşdim ki, mənim cavabım bu müttəhimin taleyini həll edə bilər. Şübhəsiz ki, hakim məni bu işlərdə təcrübəli biri hesab edirdi. Öz fikrimi bildirsəm, incəsənət haqqında fikrimlə dövlət ittihamçısı kimi bildirdiyim fikir arasında ziddiyyət yaranacaq...

Bu sehrbazın sənətkar olduğunu hakimə deyə bilərəmmi? Belə bir şey söyləməyim, sehrbaza qarşı irəli sürülən ittihamın yanlış olduğu deməkdir. Üzərimə düşən vəzifə onun təqsirli olmasını irəli sürməkdir, çünki onun işini məhkəməyə göndərən prokurorluqdur. Elə isə ən yaxşısı müttəhimi və ona qarşı irəli sürülən ittihamı bir kənara qoyub bu mövzu haqqında danışmaqdır.